COP29

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası



Gələcəyimiz naminə tarixi addım

Bakıda keçirilən COP29 yalnız müzakirələrdən ibarət olmadı, planetin taleyini təhdid edən bəzi inkişaf etmiş dövlətlərin bu sahədə öz maraqlarını necə prioritetləşdirdiyini açıq şəkildə nümayiş etdirdi. Kanada, Fransa və bütövlükdə Avropa İttifaqı kimi qlobal liderlik mövqeyi iddia edən ölkələrin maskası düşdü. İllərdir "yaşıl iqtisadiyyat" və "qlobal istiləşməyə qarşı mübarizə" kimi şüarların arxasında gizlənən ikili standartlar tam çılpaqlığı ilə ortalığa çıxdı. COP29-un bu dövlətlərin destruktiv siyasətinin ekoloji böhranın həllində ən böyük maneə olduğunu dünyaya nümayiş etdirdi. Ekoloji böhranın həllinin yalnız şüarlarla məhdudlaşmadığı, real addımların vacibliyi önə çəkildi.

Qlobal istiləşməyə qarşı mübarizə, ekosistemlərin bərpası və bəşəriyyətin ekoloji böhrandan xilas edilməsi bu günün ən mühüm prioritetlərindən biridir. Bununla belə həll yolları heç də mürəkkəb deyil, inkişaf etmiş ölkələrin qlobal fondlara lazımi maliyyə dəstəyi ayırmasından ibarətdir. Bu nə qədər sadə görünsə də beynəlxalq siyasi arenada illərdir ki, süni çətinliklər və maraq oyunları ilə təxirə salınır. 2015-ci ildə imzalanmış Paris Sazişi bəşəriyyətin ekoloji gələcəyini təmin etməyi və inkişaf etmiş dövlətlərin məsuliyyətlərini konkretləşdirməyi hədəfləyir, 2025-ci ilə qədər yeni razılaşmanın hazırlanması tələb olunurdu. Lakin bu müddət ərzində Qərbin lider ölkələri yalnız öz milli maraqlarını qorudular. Qlobal miqyasda ekoloji bərabərliyin təmin edilməsi üçün bu dövlətlərin mühüm addımlar atması, həmçinin inkişaf etməkdə olan ölkələrə maliyyə dəstəyi göstərməsi artıq bir zərurətə çevrilib. Bakıda keçirilən COP29 yalnız bir zirvə görüşü deyil, bir növ "həqiqət" inqilabı idi. Planetin gələcəyinə təhlükə yaradan riyakar mövqelər üzərinə güzgü tutan və qlobal ictimaiyyəti hərəkətə çağıran bir tribunaya çevrildi. Bu tədbir bir daha göstərdi ki, qlobal ekoloji böhranla mübarizədə hər kəsin üzərinə məsuliyyət düşür.

İqlim dəyişmələri problemi qlobal gündəmin mərkəzində yer aldığı ilk günlərdən, yəni hələ 1992-ci ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) qəbul edilməsindən bəri inkişaf etmiş ölkələr məsuliyyətini qəbul etməyə çağırılırdı. Açıq şəkildə bildirilirdi ki, inkişaf etmiş dövlətlər öz tarixi məsuliyyətlərini anlayaraq inkişaf etməkdə olan ölkələrə maliyyə dəstəyi göstərməlidirlər. Bu vəsait yalnız əlavə yardım kimi deyil, razılaşdırılmış tam xərcləri ödəmək üçün nəzərdə tutulmuşdu. Amma verilən vədlərlə həyata keçirilən əməllər arasında böyük uçurum yaranıb. İllərdir Dünya Bankı kimi maliyyə qurumları "milyardlardan trilyonlara" keçid modelini təklif etməklə qlobal maliyyə həcmini artırmağa çalışırlar. Lakin reallıq bu ideyaların yalnız kağız üzərində qalmasından ibarətdir. Məsələn, 2009-cu ildə inkişaf etmiş ölkələr 2020-ci ilə qədər iqlim layihələri üçün hər il 100 milyard dollar ayıracaqlarını vəd etmişdilər. Bu məbləğ inkişaf etməkdə olan ölkələrin həqiqi ehtiyaclarını tam ödəməyə kifayət etməsə də, həmin dövr üçün vacib razılaşma hesab olunurdu. Lakin nəticə necə oldu? Bu müddət ərzində vəsaitin cəmi 83,3 milyard dolları təmin edildi. Bu gün vəziyyət daha da ciddi xarakter alıb. İqlim Dəyişmələri üzrə Hökumətlərarası Panelin (IPCC) son hesabatına əsasən, inkişaf etməkdə olan ölkələrə yönələn iqlim sərmayələri 2030-cu ilə qədər ildə 2-3 trilyon dollara çatmalıdır. Yəni bu məbləğ mövcud rəqəmlərlə müqayisədə dörd-səkkiz dəfə artırılmalıdır. Bəs dünyanın ən güclü ölkələri bu ehtiyaclara cavab vermək üçün öz məsuliyyətlərini nə vaxt anlayacaqlar? Paris Sazişi və onun ardınca keçirilən COP tədbirləri böyük ümidlər yaratsa da maliyyə yardımları məsələsi nəticəsiz qalıb. Böyük dövlətlərin nümayəndələri danışıqlarda qlobal istiləşməyə qarşı birgə mübarizə barədə bəyanatlar versələr də öz maraqlarını üstün tutaraq razılaşmaları pozur. Qərbin bəzi aktorlarının destruktiv siyasəti səbəbindən inkişaf etməkdə olan və kasıb ölkələrə çox da böyük rəqəm sayılmayacaq yardımlar ayrılmır. Bu isə təkcə ekoloji deyil, həm də etik və sosial bir məsələyə çevrilir. Dünya ekoloji böhrandan çıxmaq üçün inkişaf etmiş ölkələr nəinki 100 milyard dollar kimi kiçik məbləği təmin etməli, hətta trilyon dollarlıq real addımlar atmalıdırlar. Çünki bu, yalnız inkişaf etməkdə olan ölkələrin deyil, bütün planetin gələcəyi üçün həyati əhəmiyyət daşıyır. Bütün bunlar bir həqiqəti ortaya qoyur ki, ədalət yalnız niyyətlərdə deyil, əməllərdə öz əksini tapmalıdır. Bugünkü gecikmələr sabahın böyük itkilərinə səbəb olacaq.

COP29 zirvəsində Fransanın nümayiş etdirdiyi destruktiv və riyakar yanaşma diqqət çəkdi. Bu, rəsmi Parisin XXI əsrdə belə neomüstəmləkəçi siyasət yürüdən bir dövlət kimi mənfi imicini daha açıq-aydın göstərdi. Bu gün bəşəriyyət iqlim dəyişmələri, ekoloji böhran və iqtisadi bərabərsizlik kimi çağırışlarla üz-üzədir. Belə bir zamanda qlobal həmrəylik və birgə fəaliyyətə ehtiyac var. Lakin COP29 öncəsi və tədbir zamanı baş verən hadisələr göstərdi ki, bəzi ölkələr üçün bu çağırışlar yalnız siyasi manipulyasiya vasitəsidir. Fransanın COP29-u gözdən salmaq üçün sistematik fəaliyyətləri bunun ən bariz nümunəsidir. Fransanın məşhur "Havas" lobbi təşkilatı COP29-a xələl gətirmək məqsədilə genişmiqyaslı kampaniya həyata keçirib. Bununla kifayətlənməyən Fransa gizli yollarla Avropa İttifaqının daxili strukturlarına və Avropa ölkələrinin siyasi rəhbərlərinə təsir göstərməyə çalışıb. Xüsusilə Fransanın prezident administrasiyası fransızdilli Afrika ölkələrindəki hökumətlərə müraciət edərək Azərbaycanın uğurla ev sahibliyi etdiyi COP29-a həm də qlobal miqyasda ekoloji həmrəylik ideyasına zərbə vurmağa çalışıblar. Fransanın bu cür fəaliyyəti onun beynəlxalq münasibətlərdə də neomüstəmləkəçi siyasət yürütməyə davam etdiyini açıq-aşkar göstərir. Öz keçmiş müstəmləkələrində nəzarəti əldən verməmək üçün Paris eyni taktikanı beynəlxalq ekoloji platformalarda da tətbiq edir. Bu isə XXI əsrdə bu dövlətin dünyəvi ədalətdən nə qədər kənar olduğunu sübut edir. Fransanın COP29-u gözdən salmaq cəhdləri, əslində qlobal miqyasda daha böyük bir problemin göstəricisidir. Bu gün iqlim dəyişmələri ilə mübarizə yalnız ekoloji deyil, həm də etik bir məsələdir. Lakin bəzi ölkələr, xüsusilə Qərbin liderləri bu mübarizəni öz hegemonluqlarını qorumaq vasitəsinə çeviriblər. Bu cür yanaşmalar bəşəri problemlərin həllinə böyük maneədir. Əgər COP29 kimi tədbirləri müəyyən ölkələr riyakar siyasətləri ilə gündəmə gətirirlərsə, bu, beynəlxalq sistemin effektivliyini ciddi şəkildə şübhə altına salır. Dünya liderlərinin bu cür destruktiv yanaşmaları qəbul etmək əvəzinə onları məsuliyyətə cəlb etməsi üçün mexanizmlər yaratması artıq qaçılmazdır.

Fransa prezidenti Emmanuel Makronun liderliyi ilə Avropa qurumlarının və beynəlxalq təşkilatların Azərbaycan əleyhinə birləşməsi artıq ənənə halını alıb. Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen, Avropa Parlamenti, AŞPA və digərləri bir il ərzində Azərbaycanın COP29-a ev sahibliyini gözdən salmağa cəhd göstərdilər. Bununla yanaşı, *"Global Witness", "Human Rights Watch", "Amnesty International" kimi QHT-lər və Qərb mediası, o cümlədən Washington Post, New York Times, Economist, Politico, BBC, Le Figaro və Le Monde* kimi qurumlar Azərbaycanı hədəfə alan qarayaxma kampaniyaları apardılar. Onların məqsədi Azərbaycanın qlobal problemlərin həllinə töhfə vermək səylərinə kölgə salmaq və ekoloji dialoqu siyasi manipulyasiyalar meydanına çevirmək idi. Almaniyanın xarici işlər naziri Annalena Berbok COP29-da riyakar davranış sərgiləyənlərdən biri idi. Bakıya səfəri zamanı vaxtının böyük hissəsini müxalifətlə və siyasi fəallarla görüşlərə həsr edən Berbok yalnız sammitin son günü tədbirdə iştirak etdi. Bu davranışı əslində qlobal ekoloji çağırışların onun siyasi prioritetləri üçün nə qədər əhəmiyyətsiz olduğunu göstərdi. Bütün bu destruktiv cəhdlərə baxmayaraq Azərbaycan COP29-da qlobal ekoloji problemlərin həllinə sadiqliyini nümayiş etdirdi. Tədbir qlobal həmrəyliyin və ekoloji məsuliyyətin nümayiş etdirildiyi bir platforma olaraq yadda qaldı. Azərbaycanın bu yolda qarşılaşdığı çətinliklər isə əslində ölkənin qlobal miqyasda artan rolundan bəzi güc mərkəzlərinin narahatlığını əks etdirir. COP29-un gedişatı bir həqiqəti üzə çıxardı ki, qlobal ekoloji problemlərin həlli yalnız texniki tədbirlərlə mümkün deyil, əsas olan möhkəm siyasi iradə və beynəlxalq həmrəylikdir.

Bütün çətinliklərə, siyasi intriqalara və bəzi dövlətlərin destruktiv mövqeyinə baxmayaraq, COP29 zirvəsi bəşəriyyət üçün mühüm nəticələrlə yekunlaşdı. Gecə saatlarına qədər davam edən gərgin müzakirələrdən sonra iqlim dəyişmələri ilə mübarizədə beynəlxalq səviyyədə təsdiq edilmiş yeni öhdəliklər dünya tarixində dönüş nöqtəsi kimi qəbul edilə bilər. COP29-un yekun plenar iclasında 2035-ci ilə qədər hər il iqlim dəyişmələrinə qarşı mübarizəyə ən azı 300 milyard dollar ayırmaq öhdəliyi götürüldü. Bu rəqəm əvvəlki 100 milyard dollarlıq hədəflə müqayisədə böyük irəliləyişdir. İştirakçı dövlətlərin iqlim dəyişmələri ilə mübarizədə məsuliyyəti bölüşmək və gələcək nəsillərə daha sabit bir planet miras qoymaq iradəsini göstərir. Razılaşmanın elan edilməsi zalda alqışlarla qarşılandı və bu, qlobal həmrəyliyin mümkün olduğunu bir daha sübut etdi. Danışıqların gərgin atmosferdə keçməsi isə konsensusun necə çətinliklə əldə olunduğunu nümayiş etdirdi. Bir sıra ölkələr maliyyələşdirmənin daha da artırılmasını tələb etsə də, yekunda 300 milyard dollarlıq öhdəlik razılaşdırıldı. Bu, dünya dövlətlərinin ekoloji problemlərə yanaşmasında yeni bir mərhələdir.

COP29-un ən mühüm nailiyyətlərindən biri Paris İqlim Sazişinin 6.2 və 6.4-cü maddələrinin tam təsdiqi oldu. Bu maddələr möhkəm və şəffaf karbon bazarlarının yaradılmasını nəzərdə tutur və iqlim məqsədlərinə nail olmaq üçün ölkələr arasında əməkdaşlığı gücləndirməyə xidmət edir. Yeni karbon bazarlarının formalaşması milli iqlim planlarının həyata keçirilmə xərclərini ildə 250 milyard dollara qədər azaltmaq potensialına malikdir. Əldə edilən bu razılaşma karbon emissiyalarının azaldılmasına və iqlim dəyişmələri ilə mübarizədə daha effektiv həll yollarına nail olmaq üçün beynəlxalq əməkdaşlığa güclü zəmin yaradır. COP29-un digər tarixi qərarı Zərər və İtkilər Fondunun tam fəaliyyətə başlaması ilə bağlı oldu. Bu fond iqlim dəyişmələrinin təsirlərindən ən çox əziyyət çəkən ölkələrə maliyyə yardımı göstərməyi nəzərdə tutur. Hazırda fondun büdcəsi 750 milyon dollar təşkil etsə də bu rəqəmin yaxın gələcəkdə artırılması planlaşdırılır. Fondun fəaliyyəti ədalətli maliyyələşdirmə prinsiplərinin reallaşdırılması və iqlim dəyişmələrindən ən çox zərər çəkənlərin müdafiəsi üçün mühüm vasitə olacaq.

COP29-da qəbul edilmiş "Azərbaycan hökumətinə və xalqına təşəkkür" adlı qətnamə ölkəmizin tədbiri yüksək səviyyədə təşkil etməsini və qlobal problemlərin həllinə verdiyi töhfəni vurğuladı. Tədbirin iştirakçıları Azərbaycanın qlobal ekoloji problemlərin həlli yolunda təşəbbüskarlığını və zirvənin mükəmməl təşkilini yüksək qiymətləndirdilər. Bakıda keçirilən COP29 ekoloji problemlərin həlli üçün dünya dövlətlərinin bir araya gəlməsinin və kollektiv fəaliyyət göstərməsinin mümkün olduğunu bir daha sübut etdi. Tarixi razılaşmalar və qəbul edilmiş qərarlar planetimizin gələcəyi üçün yeni ümidlər yaratdı. Bu tədbir həm də bütün çətinliklərə baxmayaraq, səmimi əməkdaşlıq və qlobal həmrəyliyin ən çətin problemlərin həlli üçün açar olduğunu göstərdi. COP29-un uğurları Azərbaycanın qlobal ekoloji müzakirələrdə mühüm rol oynayan bir dövlət olaraq mövqeyini gücləndirdi. Planetin gələcəyinə dair atılmış bu tarixi addımlar yalnız dövlətlərarası razılaşmaların deyil, həm də bütün bəşəriyyətin uğuru kimi qiymətləndirilir.

Nəzrin ELDARQIZI,
"Respublika".